# Tərtər: qurub-yaratmaq eşqilə yaşayan şəhər

**Başa çatmaqda olan ilin Tərtər bölgəsi üçün ən böyük və əlamətdar hadisəsi, heç şübhəsiz ki, ölkə Prezidenti cənab İlham Əliyevin və onun xanımı Mehriban Əliyevanın bu rayona səfəridir. Dekabrın 3-də reallaşan bu səfər çərçivəsində dövlət başçısı və xanımı ümummilli lider Heydər Əliyevin Tərtər şəhərinin mərkəzində ucaldılmış abidəsini ziyarət edərək önünə gül dəstələri qoyublar.**

**Daha sonra dövlət başçısı və xanımı Tərtər çayı üzərində inşa edilən yeni körpünün, şahmat məktəbinin yeni binasının, YAP Tərtər rayon təşkilatı üçün yeni inzibati binanın, Heydər Əliyev Fondunun təşəbbüsü ilə tikilən 100 yerlik körpələr evi-uşaq bağçasının açılış mərasimlərində iştirak ediblər.**

**Tərtər şəhərinin içməli su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulmasının başa çatması mərasimində iştirak edən cənab İlham Əliyev deyib: "Bu gün Tərtər rayonunun həyatında çox əlamətdar bir gündür. Tərtər şəhərinin su və kanalizasiya problemi artıq həll olunur. Çox gözəl, böyük layihədir".**

**Aprel döyüşlərində ermənilərin atəşləri nəticəsində Tərtərdə ziyan dəymiş evlərdə aparılan təmir-bərpa işləri ilə tanış olan dövlət başçısı və xanımı həyətləri gəzmiş, evlərə baş çəkmiş, sakinlərlə görüşmüş, çay süfrəsi arxasında əyləşmişlər. Bu, cəbhəyanı bölgənin əhalisində qələbəyə olan inamı, vətənpərvərlik hissini daha da gücləndirmişdir.**

**Prezident, Ali Baş Komandan İlham Əliyev Tərtərdə yeni inşa edilmiş "N" saylı hərbi hissədə əsgər və zabitlərlə görüşmüş, hərbi hissənin döyüş texnikasına baxmış, döyüş maşınlarından birinin sükanı arxasına keçərək onu idarə etmişdir.**

**Dövlət başçısı və xanımının Tərtər bölgəsinə səfəri, şübhəsiz, rayonun sosial-iqtisadi inkişafına güclü təkan verəcək, onun tarixində yeni mərhələnin başlanğıcını qoyacaqdır. Aşağıda səfər öncəsi hazırlanan və rayonun 9 aylıq sosial-iqtisadi inkişafının yekunlarına həsr olunan səhifəni oxucularımıza təqdim edirik.**

Hər dəfə bu gözəl diyara səfərimiz çoxsaylı yeniliklərlə yadda qalır və bu yeniliklərin fonunda davamlı və dinamik inkişafın canlı şahidinə çevrilirik. Düşmənlə təmas xəttinin yaxınlığında yerləşən bu qəhrəman şəhər və onun hünərvər insanları, səxavətli və həmişə duzçörəkli, qonaqlı-qaralı camaatı daim qurub-yaratmaq eşqi ilə yaşayıb və bu gün həmişəkindən daha çox bu ənənələrin davamçısıdır. Tərtər və onun əhalisi yaşayır-yaradır, həm də ona görə ki, Qarabağın qapısında ayıq-sayıq dayanmış tərtərlilərdə Vətənə sevgi və torpağa bağlılıq hissləri olduqca güclüdür. Şəhərdə və onun ətraf kəndlərində yaşayan əhalinin xeyli hissəsi 1948-ci ildə Stalin dövrünün mənfur köçürmə siyasətinə tuş gəlmiş, Qərbi Azərbaycandakı dədə-baba yurdlarından qovulmuş soydaşlarımızdır. Yurddaşlarımızda erməni millətçilərinin iç üzünə bələd olmaq bəlkə də elə buradan qaynaqlanır.

Qarabağ uğrunda savaş başlayandan bu günə Tərtər əhalisi gecələri-gündüzlərə qataraq torpaqlarımızın müdafiəsinə qalxıb-cavanları ön cəbhədə, qadın-uşaqları və ahılları isə isti yuvasında keşik çəkərək hər qarış torpağı namus-qeyrəti qədər üstün tutub, onun təəssübünü çəkib. O ağır günlərdən bu günə illər bir-birini əvəz edib, nəsillər dəyişib. Dəyişməyən isə odur ki, müharibə hələ davam edir. Azərbaycan xalqının haqq işinə ədalətli yanaşmada beynəlxalq aləmin baxışı-dəyişən isə məhz budur!

Prezident İlham Əliyev 2016-cı ilin doqquz ayının yekunlarına həsr



olunmuş Nazirlər Kabinetinin iclasında Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsinə toxunaraq, cari ilin aprel ayında Azərbaycanın böyük hərbi qələbə əldə etdiyini söyləmiş, aprel döyüşlərinin tariximizin şanlı səhifəsi olduğunu vurğulamışdır. Aprel döyüşlərindən sonra vasitəçilərin bir qədər fəallaşdıqlarını, may-iyun aylarında görüşlər keçirildiyini bildirən dövlət başçısı deyib: "Ermənistan öz çirkin taktikasını işə salaraq və erməni lobbisinin dəstəyinə arxalanaraq yenə də istəyir ki, bu məsələ dünya gündəliyindən çıxsın. Biz buna imkan verməməliyik və məsələ tezliklə həllini tapmalıdır. Ermənistanın böyük himayədarları var. Biz yaxşı bildirik ki, ikili standartlarla üzləşmişik və bu məsələnin həll olunmaması BMT Təhlükəsizlik Şurasına da şərəf gətirmir. Çünki onlar 4 qətnamə qəbul ediblər. Bu qətnamələr 20 ildən çoxdur ki, icra edilmir... Biz həm iqtisadi, siyasi, həm də hərbi cəhətdən daha da güclü olmalıyıq və bu güc bizdə var. Sadəcə olaraq istəyirik ki, məsələ sülh yolu ilə həll edilsin və bu istiqamətdə ardıcıl siyasətimizi aparırıq".

Bu gün Tərtərin adı Azərbaycanın dinamik inkişaf edən, abadlaşan, gözəlləşən rayonları sırasında fəxrlə çəkilir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin diqqət və qayğısı sayəsində şəhər rəhbərliyinin işgüzar və yorulmaz fəaliyyəti özünü bütün sahələrdə, əsasən sakinlərin gündəlik həyatında büruzə verir. Tərtər sözün əsl mənasında, tikinti-quruculuq və abadlıq işlərinin mərkəzinə çevrilib.

**"Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2016-cı ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasındakı nitqindən irəli gələn vəzifələr və cari ilin doqquz ayında rayonda görülmüş işlər barədə"** Tərtər Rayon İcra Hakimiyyətinin başçısı Müstəqim Məmmədovun hesabatında da geniş bəhs edilmişdir. İlin arxada qalan doqquz ayı Tərtər rayonu üçün uğurlu olmuşdur. Prezident İlham Əliyevin diqqət və qayğısı sayəsində hesabat dövründə rayonda tikinti-quruculuq və abadlıq işləri davam etdirilmişdir.

2016-cı ilin aprel ayında erməni silahlı birləşmələrinin növbəti təxribatı nəticəsində Tərtər şəhəri də daxil olmaqla, 17 yaşayış məntəqəsində 256 yaşayış evinə, 4 məktəb binasına, 2 tibb məntəqəsinə, 1 körpələr evi-uşaq bağçasına, qaz, işıq, su, rabitə təsərrüfatına və əhalinin mal-qarasına və digər əmlaklarına müxtəlif dərəcədə ziyan dəymişdir. Bununla əlaqədar ölkə başçısının sərəncamı ilə zərər çəkmiş yaşayış evlərinin təmir-bərpası üçün vəsait ayrılmış və həmin evlər yüksək səviyyədə bərpa olunaraq sakinlərin istifadəsinə verilmişdir.

Tərtər şəhərinin Heydər Əliyev prospektində, Elman Hüseynov, Famil Qulami, Şıxəli Qurbanov, Mehrac Mahmudov, Vasif Hüseynov, Fikrət Əmirov və Rasim Mürsəlov küçələrində ümumi uzunluğu 8 km olan yollara asfalt örtük çəkilmişdir. Mahir Əsədov küçəsinə asfalt örtüyün çəkilməsi işlərinə başlanılmışdır.



Hazırda Tərtər şəhərində 100 yerlik yeni uşaq bağçasının və müasir tələblərə cavab verən Şahmat məktəbinin tikintisi artıq başa çatmışdır.

Şəhərin mərkəzində ümumi sahəsi 1200 kvadratmetr olan ikimərtəbəli, zirzəmili, müasir üslubda tikilən Tarix-diyarşünaslıq muzeyində son tamamlama işləri aparılır. Burada Tərtərin dünəni və bu günü ilə bağlı zəngin materialların və eksponatların sərgilənməsi nəzərdə tutulur.

Doqquz ay ərzində görülən abadlıq işlərinin həcmi də böyükdür. Tərtər şəhərinin H.Əliyev prospektində və E.Hüseynov küçəsində səkilərə 1450 kvadratmetr tamet daşları döşənmişdir. E.Hüseynov küçəsində ümumi uzunluğu 4 km olan yeni səki daşları-bordür düzülmüş, kommunikasiya xətləri qaydaya salınmış, küçə genişləndirilmiş, küçə boyu yaşıllıq zolağı salınmış, gecə işıqlanması ilə təmin olunmuşdur.

Mühüm strateji əhəmiyyətə malik 18051 nəfər əhalisi olan, rayonun 19 yaşayış yaşayış məntəqəsini birləşdirən, Sarıcalı kəndi ərazisində, Tərtər çayı üzərində uzunluğu 106 metr, eni 11.5 metr olan 3 aşırımlı yeni körpünün tikintisi davam etdirilir.

Respublika əhəmiyyətli Goranboy-Tərtər avtomobil yolunun 18-ci kilometrində, Sarov kəndi ərazisində, İncə çayı üzərində yerləşən, qəzalı vəziyyətdə olan körpünün layihə-smeta sənədləri əsasında tikintisinə start verilmişdir.

Rayonda ekoloji tarazlığın qorunması məqsədilə Bərdə, Ağdam və Gəncə istiqamətində yol kənarlarına və rayonun yaşayış məntəqələrində 30 mindən çox müxtəlif növ ağaclar və gül kolları əkilmişdir.

Dövlət başçısı cənab İlham Əliyevin strateji məhsul olan pambığın istehsalının inkişaf etdirilməsi məqsədilə apardığı məqsədyönlü tədbirlərin nəticəsi olaraq, Tərtər rayonunda da pambıqçılığın köhnə şöhrətini bərpa etmək üçün mühüm işlər görülür.

Tərtərin torpağı çox məhsuldar və bərəkətlidir. Həm torpağın xüsusiyyətləri, həm də rayonun iqlim şəraiti pambıq əkini üçün əlverişlidir. Sovet dönəmində rayonda 10 min hektardan çox pambıq əkilmiş, 43 min tondan çox məhsul götürülmüşdür.

Ölkə başçısının tapşırığına uyğun 2016-cı ildə rayonda 1035 hektarda pambıq əkilib becərilmişdir. Əvvəlki ilə nisbətən pambıq əkini sahəsi 2 dəfə artmışdır. Cari ildə aqrotexniki qaydalara əməl edildiyindən sahələrdə bol məhsul yetişdirilmişdir. Hazırda rayonda pambıq yığımı uğurla davam etdirilir. Qəbul məntəqələrinə hazırda 2180 tondan çox məhsul təhvil verilmişdir. Bu da əvvəlki ilə nisbətən 2,4 dəfə çoxdur.

2017-ci ildə rayonda 3 min hektar sahədə pambıq, 2 min hektar sahədə isə şəkər çuğunduru əkilməsi və 3 ton barama istehsal edilməsi nəzərdə tutulmuşdur. Baramaçılığın gələcəkdə inkişafı üçün rayonda 120 min ədəd çəkil tingi əkiləcəkdir. Bunun üçün sahələr müəyyənləşdirilmiş, qüvvələr səfərbər edilmiş və digər tədbirlər görülmüşdür.

Dövlət başçısının tapşırığına uyğun Tərtərdə bağçılığın inkişafı da diqqət mərkəzindədir. Bu istiqamətdə indiyədək bir sıra işlər görülmüşdür. 2017-ci ildə illərdən bəri istifadə olunmayan 300 hektar sahədə bağçılığı inkişaf etdirmək məqsədi ilə dövlətə valyuta gətirən xurma, fındıq, zeytun, badam və nar bağlarının salınması planlaşdırılmışdır.

Cari ildə dövlət fond torpaqlarından 2279 hektar istifadə olunmayan və ya təyinatı üzrə əkilməyən torpaq sahələri geri qaytarılmışdır.

Dövlət tərəfindən kənd təsərrüfatı istehsalçılarına subsidiya və yardımların verilməsi, mülkiyyətçilərin maddi maraqlarının yüksəldilməsi kənd təsərrüfatının inkişafına stimul vermişdir. İstehsalçılara dövlət büdcəsi hesabına hər hektar buğda səpininə görə 304 min 80 manat, əkin sahələrinin becərilməsində istifadə etdikləri yanacaq və motor yağlarına görə 7421 istehsalçıya 1 milyon 198 min manat yardım verilmişdir. Mineral gübrələrin orta hesabla 70 faiz güzəştli satılması qaydalarına uyğun 891 istehsalçıya 986 ton güzəştli şərtlərlə mineral gübrə satılmışdır.

2016-cı ildə 12 min 412 hektar sahədə taxıl səpilmişdir. 7932 hektar buğda sahəsindən hər hektardan orta məhsuldarlıq 37.3 sentner olmaqla, 29 min 586 ton buğda, 4282 hektar arpa sahələrindən hər hektardan orta məhsuldarlıq 27.2 sentner olmaqla, 11 min 647 ton arpa məhsulu istehsal edilmişdir.

Bundan başqa, cari ilin 9 ayı ərzində 967 ton paxlalı, 742 ton dən üçün qarğıdalı, 2148 ton dən üçün günəbaxan, 13655 ton şəkər çuğunduru, 5831 ton kartof, 11745 ton tərəvəz, 6591 ton meyvə istehsal olunmuşdur. Hazırda məhsul yığımı davam etdirilir.

Hesabat dövrü ərzində heyvandarlığın inkişafı təmin edilmişdir. İribuynuzlu mal-qaranın sayı 26.7 min başa, xırdabuynuzlu mal-qaranın sayı 73.1 min başa çatmışdır. Həyata keçirilən tədbirlər nəticəsində 9 ayda rayonda 2134 ton diri çəkidə ət, 15.3 min ton süd, 7 milyon 670 min ədəd yumurta, 125 ton yun və son 20 ildə ilk dəfə 959 kiloqram barama istehsal edilmişdir.

Rayonda mövcud olan 474 ədəd subartezian quyusundan 468 ədədi saz və işlək vəziyyətdədir. İlin 9 ayı ərzində 183 ədəd subartezian quyusunun nasosları əsaslı təmir edilmiş, 42 ədəd subartezian quyusunun yararsız nasosları yenisi ilə əvəz olunmuşdur.

Əkin sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılması, əhalinin içməli suya olan tələbatının ödənilməsi məqsədi ilə Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin tapşırıq və tövsiyələri əsasında rayonda son 10 ildə 123 subartezian quyusu qazılıb istifadəyə verilmişdir.

2015-ci ilin müvafiq dövrünə nisbətən cari ilin 9 ayı ərzində rayonda kənd təsərrüfatı məhsulunun ümumi həcmi 3.2 faiz, sənaye məhsulunun həcmi 15.5 faiz, informasiya və rabitə xidmətlərinin həcmi 8.2 faiz, nəqliyyat sektorunda yükdaşımaların həcmi 3.7 faiz, sərnişin daşımalarının həcmi 3.9 faiz, pərakəndə ticarət dövriyyəsinin həcmi 0.6 faiz, əhaliyə göstərilən ödənişli xidmətlərin həcmi 1.1 faiz artmışdır. Bir işçiyə hesablanmış orta aylıq əmək haqqı 217.8 manat təşkil etmişdir.

Əhaliyə göstərilən ticarət, iaşə və digər xidmətlərin səviyyəsini yüksəltmək üçün 14 obyektin tikintisinə icazə verilmişdir. Yeni tikilən ticarət və xidmət obyektləri müasir dizaynla tikilərək şəhərin ümumi görkəminə uyğunlaşdırılmışdır.

Prezident İlham Əliyevin tapşırıq və göstərişlərinə uyğun olaraq rayonda sahibkarlığın dəstəklənməsi istiqamətində işlər davam etdirilmişdir. Sahibkarlığa Kömək Milli Fondunun vəsaiti hesabına cari ilin 9 ayında 27 sahibkarlıq subyekti 192 min manat kredit almışdır. Həmin layihələrdə 29 iş yeri açılacaqdır.

Dövr ərzində Dövlət Sosial Müdafiə Fondunun Tərtər Rayon Şöbəsinin hesabına 2 milyon 552.9 min manat məcburi dövlət sosial sığorta haqqı daxil olmuşdur. Pensiya və müavinətlərin ödənilməsinə 15 milyon 220 min manat pensiya vəsaiti xərclənmişdir. İlin birinci yarısında pensiyaların sığorta hissəsi Azərbaycan Respublikası Statistika Komitəsinin 2015-ci il üçün müəyyən etdiyi inflyasiya faizinə (4%) uyğun olaraq artırılmışdır. Artım rayon üzrə 9920 nəfərə şamil olunmuşdur ki, bunun üçün hər ay 20.6 min manat vəsait ödənilmişdir.

Əhalinin məşğulluğunun təmin edilməsi məqsədi ilə 930 nəfər işaxtaran vətəndaşdan 396 nəfəri öz peşə və ixtisaslarına uyğun daimi işlə təmin olunmuşdur. Onların 330-u yeni yaradılmış iş yerlərində çalışır. Hesabat dövründə Məşğulluq Mərkəzi tərəfindən 52 nəfər vətəndaşa işsizlik statusu verilmiş, 55 nəfərə işsizliyə görə müavinət təyin edilmişdir.

Hesabat dövründə rayonda 2140 yeni iş yeri açılmışdır ki, onun da 1459-u daimidir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırığı ilə respublikanın bölgələrində infrastruktur layihələrin həyata keçirilməsi çərçivəsində 2015-ci ilin iyun ayından Tərtər şəhərinin və ətraf 11 kəndin içməli su və kanalizasiya sisteminin qurulması layihəsinin icrasına başlanılmışdır.



Bu işlər uğurla davam etdirilir. Bu günə qədər diametri 200-500 mm olan qofralı borular ilə 50117 metr magistral kanalizasiya xətti və diametri 600 mm olan qofralı boru ilə 3434 metr kanalizasiya kollektor xətti çəkilmişdir.

Əhalinin dayanıqlı elektrik enerjisi ilə təmin edilməsi diqqət mərkəzində saxlanılmışdır. Belə ki, rayonda 5 yarımstansiyada yağ açarları cari təmir edilmiş və ətrafları səliqəyə salınmışdır. 35/10 kv-luq İsmayılbəyli yarımstansiyasında 1 ədəd 2.5 mva transformator, 35/10 kv-luq Sarıcalı yarımstansiyası müasir tələblərə uyğun təmir edilmiş və əlavə 1 ədəd 10 mva transformator, 31 yeni KTM quraşdırılmışdır.

Tərtər şəhərində, Hüsənli, Azad Qarqoyunlu kəndlərində və İsmayılbəyli, Poladlı kəndlərinin yaxınlığında məskunlaşan köçkünlərə xidmət edən 0.4 kv-luq hava xəttində 187 ədəd dayaq dəyişdirilmiş, 15 km naqil çəkilmişdir. 32 ədəd yeni transformatorlar quraşdırılmışdır.

Regionların sosial-iqtisadi inkişafına dair Dövlət Proqramına uyğun rayonun bütün yaşayış məntəqələrinin mavi yanacaqla təmin olunması üçün işlər uğurla davam etdirilmişdir. İlin ötən aylarında rayonda 6 yaşayış məntəqəsi - Sarov, Bəyimsarov, Kəbirli, İlxıçılar, Dəmirçilər və Xoruzlu kəndləri qazlaşdırılmış, 3 yaşayış məntəqəsində isə qazlaşma işləri aparılır. Artıq rayonun 51 yaşayış məntəqəsindən 43-ü qazlaşdırılmışdır.

Hesabat dövründə Telekommunikasiya Qovşağı 8068 nömrə tutumu olan 28 EATS və 20 nömrəlik 5 yaşayış məntəqəsini əhatə edən Peyk avadanlığı ilə rayon əhalisinə xidmət göstərmişdir. Rayonda mərkəzi EATS-də 112 və 13 kənd EATS-lərdə 408 olmaqla, cəmi 520 portluq əlavə internet avadanlığı quraşdırılmış, əhaliyə 100 telefon çəkilmiş, internet istifadəçilərinin sayı 2590-a çatdırılmışdır.

"Azərpoçt" MMC-nin Tərtər Poçt Filialında 22 kənd və 1 şəhər poçt şöbəsi fəaliyyət göstərmişdir. Dövr ərzində əhaliyə, müəssisə və təşkilatlara 43 min 150 manat plan tapşırığına qarşı 37 min 581 manatlıq, yəni 87.9 faiz əməl olunmuşdur.

Hesabat dövründə təhsilin səmərə və keyfiyyətinin yüksəldilməsi və təhsil ocaqlarının maddi-texniki bazasının möhkəmləndirilməsi diqqət mərkəzində olmuşdur.

2015-2016-cı dərs ilində rayonun ümumtəhsil məktəblərini bitirmiş məzunlardan ali məktəblərə 350 nəfər qəbul üçün sənəd vermiş, 193 nəfəri ali, 84 nəfəri isə orta ixtisas məktəblərinə qəbul olmuşdur. Ali məktəblərə qəbul zamanı 7 nəfər 600-dən, 19 nəfər 500-dən yuxarı bal toplamışdır. Məzunlardan 5 nəfərin Heydər Əliyev adına Ali Hərbi Məktəbə, 3 nəfərin isə C.Naxçıvanski adına Hərbi Liseyə daxil olması yeniyetmə və gənclər arasında hərbi sahəyə marağın artmasının göstəricisidir.

Əhaliyə göstərilən səhiyyə xidmətinin yaxşılaşdırılması istiqamətində bir sıra tədbirlər həyata keçirilmişdir. Respublika Prezidenti cənab İlham Əliyevin fevralın 15-dən mayın 2-dək bütün ölkə vətəndaşlarının icbari tibbi müayinədən keçirilməsi ilə bağlı tapşırığına əsasən 26 min 424 nəfər tibbi müayinədən keçirilmiş, 2052 nəfər ambulator, 32 nəfər stasionar müalicəyə cəlb olunmuş, 3 nəfər müalicə üçün Bakı şəhərinə göndərilmişdir.

Dövr ərzində yoluxucu xəstəlik sayılan malyariyaya qarşı əks-epidemik tədbirlər görülmüş, 5440 nəfərdən qan nümunəsi alınaraq GEM-in parazitoloji laboratoriyasında müayinə olunmuş, malyariyalı xəstə aşkar edilməmişdir.

Cari ilin ötən dövründə rayonda hüquq qaydalarının möhkəmləndirilməsi, cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi, insanların hüquq və azadlıqlarının təmin edilməsi sahəsində mövcud qanunlar əsasında ardıcıl işlər aparılmışdır.

Bütün dünyada ictimai bəla sayılan narkomaniyaya və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə işi diqqət mərkəzində saxlanılmışdır.

Hesabat dövründə rayon polis şöbəsi üzrə 145 cinayət hadisəsi qeydə alınmışdır. Cinayət hadisələrinin sayı 2015-ci ilə nisbətən 13 ədəd və ya 9,8 faiz artmış, açılma əmsalı isə 10 faiz aşağı olmuşdur.

Rayonda Azərbaycan Respublikası Prezidentinin Sərəncamları əsasında gənclərin hərbi xidmətə çağrılması və göndərilməsi uğurla təmin edilmişdir. Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti Tərtər Rayon Şöbəsi tərəfindən doqquz ay ərzində 3 çağırış həyata keçirilmiş, 236 nəfər təntənəli şəkildə hərbi xidmətə, həqiqi hərbi xidməti başa vurmuş gənclərin 4 nəfəri zabit hazırlığı kursuna, 9 nəfəri gizirlik hazırlığı kursuna, 80 nəfər müddətdən artıq hərbi xidmət keçmə kursuna Təlim və Tədris Mərkəzinə göndərilmişdir.



Hesabat dövründə vətəndaşların təklif, ərizə və şikayətlərinə baxılması işi diqqət mərkəzində saxlanılmışdır. Rayon icra hakimiyyəti başçısı aparatına 724 müraciət daxil olmuşdur.

Rayon icra hakimiyyəti başçısı aparatına daxil olan müraciətlər 2015-ci ilin doqquz ayı ilə müqayisədə 237 ədəd və ya 49% artmışdır. Buna əsas səbəb birinci Qarabağ müharibəsi və aprel hadisələri zamanı zərər çəkmiş evlərin bərpası, əhalinin əmlak və təsərrüfatına dəymiş ziyanın ödənilməsi, Qarabağ müharibəsi əlilləri və şəhid ailələrinin mənzillə təmin olunması, məcburi köçkünlərin ev tələbi, içməli və suvarma suyu üçün subartezian quyularının qazılması, sosial yardım və müavinətlər, işlə təmin olunma və s. olmuşdur.

Rayon icra hakimiyyətinə hesabat dövründə daxil olan 724 müraciətin hamısı elektron informasiya sisteminin tələblərinə uyğun işlənilmiş, müvafiq olaraq aidiyyəti üzrə icraçılara verilmiş və icrasına nəzarət edilmişdir.

Dövr ərzində rayon icra hakimiyyətinin başçısı tərəfindən 736 vətəndaş qəbul edilmiş, qaldırılmış məsələlərdən 452-si müsbət, 94-nün icrası qismən həll edilmiş, 61-i əsassız sayılmış, 129-u aidiyyəti üzrə baxılması üçün idarə, müəssisə və təşkilatlara göndərilmişdir.

Rayon icra hakimiyyəti başçısının yerlərdə 32 qəbul-görüşləri keçirilmiş, qəbul-görüşlərdə 6570 nəfər iştirak etmiş, 285 nəfər vətəndaşın müraciətləri dinlənilərək həlli mümkün məsələlər yerində həll edilmişdir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Nazirlər Kabinetinin 2016-cı ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında ötən dövrdə əldə olunan sosial-iqtisadi göstəricilərə diqqət yönəldərək bildirmişdir ki, görülən işlər, qazanılan uğurlar qarşıya qoyulan məqsədlərə yüksək səviyyədə nail olmağa stimul verir: "Əminəm ki, Azərbaycan son 3 ay ərzində görüləcək işlər nəticəsində 2016-cı ili də uğurla başa vuracaq, 2017-ci il də uğurlu olacaq. Əminəm ki, qarşıya qoyulan bütün vəzifələri icra etmək üçün bizdə kifayət qədər iradə, güc var. Xalq bizim siyasətimizi dəstəkləyir. Bizim yolumuz açıqdır. Biz bundan sonra da inkişaf və tərəqqi yolu ilə gedəcəyik".

Ölkə başçısı cənab İlham Əliyevin nitqindəki tarixi fikirləri əldə rəhbər tutan Tərtər ictimaiyyəti və rayon rəhbərliyi əmindir ki, tərtərlilər Azərbaycan Prezidentinin həyata keçirdiyi uğurlu inkişaf strategiyasını bundan sonra da dəstəkləyəcək, əhalinin sosial-rifahının yaxşılaşdırılması üçün var qüvvəsini əsirgəməyəcəkdir.

**Maarif RZAYEV,**
**"Respublika".**





